https://doi.org/10.58225/tim.2025-1-234-244

**N.C.Hacıyev**
***i.ü.f.d., doktorant***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***ORCİD 0009-0008-8700-3904***
***narimangd@yahoo.com***

*Məqalə redaksiyaya daxil olub 22.01.2025*
*The article was received by editorial board on 22.01.2025*
*Статья принята к печати 22.01.2025*

# ÇAĞDAŞ DÖVRDƏ XARİCİ VƏ DAXİLİ FAKTORLARIN AZƏRBAYCANDA RƏQƏMSAL E-HÖKUMƏT QURUCULUĞU PROSESİNƏ VƏ E-XİDMƏTLƏR SAHƏSİNİN İNKİŞAFINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

*Məqalədə çağdaş dövrdə Azərbaycanda rəqəmsal iqtisadiyyata keçiddə rəqəmsal e-hökumət quruculuğunun uğurla başa çatdırılması prosesinə və e-xidmətlər sahəsinin inkişafı perspektivlərini qiymətləndirmək məqsədi ilə aparılmış SWOT analizinin və hazırki strateji şəraitin rəqəmsal e-hökumətə keçid potensialına və inkişaf istiqamətinə təsirinin PEST analizinin nəticələri barədə məlumat verilir.*

***Açar sözlər:*** *rəqəmsal iqtisadiyyat, rəqəmsal e-hökumət, SWOT analiz, PEST analiz.*

## GİRİŞ

Ümummilli lider Heydər Əliyevin yolu ilə inkişaf edən, öz torpaqlarını işğaldan azad edən, ölkədə sabit və dayanıqlı iqtisadiyyata malik olan, sosial problemlərin və xalqın maddi rifahının yüksəlməsində uğurlara imza atan, insan kapitalının davamlı inkişafını təmin edən, region və dünya iqtisadiyyatında "qlobal oyunçu" statusuna malik olan *"Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur"* (1).

Ölkəmizin son 10 ildə əsas nailiyyətləri *"beş fundamental nəticə-qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ölkənin 10 illik sosial-iqtisadi inkişaf"*la xarakterizə olunur (1).

"2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nın Tədbirlər Planının 1.1.8. bəndində fəaliyyət istiqaməti kimi *"Rəqəmsal iqtisadiyyata keçidin sürətlənməsi" bölümündə "Milli iqtisadiyyatda 4-cü sənaye inqilabı (4Sİ) texnologiyalarının tətbiqi imkanlarının tədqiq olunması" nəzərdə tutulur. Eyni zamanda məqsəd 2.2: Yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət"* kimi formalaşdırılıb.

3.1.7.-də "Fəaliyyət istiqaməti: Erkən yaşlardan rəqəmsal səriştələrin artırılması, İKT-nin təhsildə tətbiqi və distant təhsil imkanlarının genişləndirilməsi"ndə *"müvafiq göstəricilərin ilbəil azaldılaraq dövrün sonuna 6 şagirdə 1 kompüter nisbətinə çatması, dövrün sonuna elektron resursların sayının 40000-ə çatması, müxtəlif təhsil pillələri və ümumi idarəetmə üzrə 26 informasiya sistemi və elektron xidmətlərin istifadəyə verilməsi"* nəzərdə tutulur.

3.2.3.-də "Fəaliyyət istiqaməti: "İqtisadiyyatın müxtəlif sahələrində innovasiyaların tətbiqi imkanlarının genişləndirilməsi"ndə *"nəqliyyat və logistika sahəsinin rəqəmsallaşması, elektron ticarət həcminin və istifadəçilərinin sayının artması, onlayn platforma üzərindən keçirilən bizneslərarası (B2B) əməliyyatlarının həcminin hər il 15% artması, ölkələrarası elektron imzanın*

*qarşılıqlı tanınması və ölkələrarası elektron sənəd mübadiləsində iştirak edən əsas ticarət subyektlərinin sayının hər il 10% artması”* yekun nəticələrdə öz əksini tapmışdır.

3.2.5.-də “Fəaliyyət istiqaməti: Dövlət xidmətlərinə əlçatanlığın genişləndirilməsi üçün innovasiyaların tətbiqi”ndə *“Rəqəmsal transformasiya konsepsiyasının hazırlanmasının yekunlaşdırılması və təsdiq olunması üçün təqdim edilməsi (2022-2023), bütün dövlət xidmətlərinin (G2C, G2B, G2G) illər üzrə rəqəmsal mühitə keçirilməsi ilə bağlı prioritet istiqamətlərin müəyyən edilməsi və onların onlayn formatda təşkil olunmasının əlaqələndirilməsi (2022-2026) və dövrün sonuna kommunal xidmətlərin vahid informasiya sisteminin tamamlanması”* kimi məsələlərin həlli nəzərdə tutulur.

Məhz bu yuxarıda qeyd edilən məsələlərin həlli üçün Azərbaycanda rəqəmsal elektron hökumətin formalaşması istiqamətində şəraitin obyektiv qiymətləndirilməsi və düzgün nəticələrin çıxarılması olduqca vacibdir.

**İşin məqsədi:** xarici və daxili faktorların ölkəmizdə rəqəmsal e-hökumət quruculuğunun başa çatdırılması imkanlarına və xidmətlər sahəsinə təsirinin SWOT, mövcud strateji şəraitin rəqəmsal e-hökumətə keçid potensialını və inkişafın istiqamətini müəyyən etmək məqsədi ilə PEST analizinin aparılması.

Hazırda SWOT analizindən iqtisadiyyatın və idarəetmənin müxtəlif sferalarında geniş istifadə edilir *(2, 3, 4, 5, 6, 7)*. Rəqəmsal iqtisadiyyatın perspektiv inkişafında iqtisadiyyatın rəqəmsallaşmasının böyük əhəmiyyəti vardır.

Buna görə də, 2023-cü ilin sonlarında öz ərazi bütövlüyünü tam bərpa edən və erməni təcavüzünə son qoyan Azərbaycan Respublikasında elektron hökumət quruculuğu sahəsində qarşıda bizi gözləyən məsələləri öyrənmək məqsədi ilə tərəfimizdən SWOT analizi aparılmışdır. Məhz SWOT analizi bizə bu sahədə mövcud vəziyyəti real təhlil etməyə və elektron hökumətin inkişaf perspektivlərini qiymətləndirməyə imkan verir. Bu məqsədlə aşağıdakı 1 saylı cədvəldə verilən matrisa doldurularaq, 2 saylı cədvəldə verilən riyazi metodların köməyi ilə güclü və zəif tərəflər, imkanlar və təhlükələr statistik qiymətləndirilmişdir.

**Cədvəl 1**

**SWOT analizinin matrisası**

| | **İmkanlar** | **Təhlükələr** |
|---|---|---|
| Güclü tərəflər | “S-O” sahəsi | “S-T” sahəsi |
| Zəif tərəflər | “W-O” sahəsi | “W-T” sahəsi |

**Cədvəl 2**

**SWOT situasiya analizi matrisasının qiymətləndirilməsi**

| **Güclü tərəflər** | **Əhəmiyyət** | **Qiymət** | **Pay** | **İmkanlar** | **Əhəmiyyət** | **Qiymət** | **Pay** |
|---|---|---|---|---|---|---|---|
| 1 | $Z^s_1$ | $N^s_1$ | $F_1 = \frac{Z^s_1 N^s_1}{\sum Z^s_i N^s_i}$ | 1 | $Z^0_1$ | $N^o_1$ | $V_1 = \frac{Z^o_1 N^o_1}{\sum Z^0_i N^o_i}$ |
| 2 | $Z^s_2$ | $N^s_2$ | $F_1 = \frac{Z^s_2 N^s_2}{\sum Z^s_i N^s_i}$ | 2 | $Z^o_2$ | $N^o_2$ | $V_1 = \frac{Z^o_2 N^o_2}{\sum Z^0_i N^o_i}$ |
| … | | | | … | | | |
| **Zəif tərəflər** | **Əhəmiyyət** | **Qiymət** | **Pay** | **Təhlükələr** | **Əhəmiyyət** | **Qiymət** | **Pay** |
| 1 | $Z^w_1$ | $N^w_1$ | $Z^w_1 N^w_1$<br>$G_1$ =------ | 1 | $Z^t_1$ | $N^t_1$ | $Z^t_1 N^t_1$<br>$U_1$ =----- |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | ---- $\sum Z^w_i N^w_i$ | | | | ---- $\sum Z^t_i N^t_i$ |
| 2 | $Z^w_2$ | $N^w_2$ | $Z^w_2 N^w_2$ $G_1$ =----- ----- $\sum Z^w_2 N^w_2$ | 2 | $Z^t_2$ | $N^t_2$ | $Z^t_2 N^t_2$ $U_1$ =----- ---- $\sum Z^t_2 N^o_2$ |
| … | | | | | | | |

$\sum_i F=1, \sum_i G=1, \sum_i V=1, \sum_i U=1$

Aparılmış analizin nəticələrinə əsasən hər bir parametr dürüst qiymətləndirilməklə payı müəyyən edilmişdir.

**Cədvəl 3**

**SWOT matrisa əsasında qiymətləndirmənin yekun nəticələri**

| № | Güclü tərəflər | Əhəmiyyət | Qiymət | Balla qiymətləndirmə | Pay |
|---|---|---|---|---|---|
| **1.** | Əhalinin ölkə prezidentinə inamı və etibarının yüksək olması | 5 | 5 | 25 | 0,09 |
| **2.** | Azərbaycanda rəqəmsal-hökumət barədə qəbul edilmiş Proqramların öz müddətlərində həyata keçirilməsi üçün vacib olan ölkə Prezidentinin siyasi iradəsi və güclü lider olması. | 5 | 5 | 25 | 0,09 |
| **3.** | Ölkənin ərazi bütövlüyünün bərpası. | 5 | 5 | 25 | 0,09 |
| **4.** | Ölkədə siyasi sabitliyin və dayanıqlı iqtisadi inkişafın olması. | 5 | 5 | 25 | 0,09 |
| **5.** | Cəmiyyətdə rəqəmsal informasiyalara və elektron xidmətlərə marağın get-gedə artması. | 4 | 5 | 20 | 0,0719 |
| **6.** | Ölkədə müasir İKT infrastrukturunun mövcudluğu və müntəzəm olaraq yenilənməsi. | 4 | 5 | 20 | 0,0719 |
| **7.** | E-hökumət sahəsində işlərin həyata keçirilməsinə cavabdehlik və məsuliyyət daşıyan təşkilatın olması. | 4 | 4 | 16 | 0,0575 |
| **8.** | Sabit maliyyə durumu və sabit milli valyutanın olması. | 5 | 5 | 20 | 0,0719 |
| **9.** | İKT sahəsinə investisiya qoyuluşunun artması. | 5 | 5 | 25 | 0,09 |
| **10.** | İKT sahəsində gəlirlərin artması. | 5 | 5 | 25 | 0,09 |
| **11.** | Bürokratiyanın ləğvi prosesinin sürətli gedişi. | 4 | 4 | 16 | 0,0575 |
| **12.** | Təhsilin | 4 | 3 | 12 | 0,0431 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | informativləşdirilməsində ardıcıl siyasət. | | | | |
| **13.** | Ev təsərrüfatlarında kompüter avadanlıqlarının sürətli artımı. | 4 | 3 | 12 | 0,0431 |
| **14.** | Dövlət xidmətlərinə asan və sürətli giriş. | 4 | 3 | 12 | 0,0431 |
| | **Cəmi:** | | | **278** | **1** |
| | | | | | |
| **№** | **Zəif tərəflər** | **Əhəmiyyət** | **Qiymət** | **Balla qiymətləndirmə** | **Pay** |
| **1.** | İşğaldan azad olmuş ərazilərin reintiqrasiyasının böyük maliyyə vəsaiti tələb etməsi. | 5 | 5 | 25 | 0,25 |
| **2.** | Cəmiyyətdə rəqəmsal bərabərsizliyin mövcudluğu. | 4 | 4 | 16 | 0,16 |
| **3.** | Təhsilin informativləşməsinin nisbətən aşağı səviyyəsi. | 4 | 4 | 16 | 0,16 |
| **4.** | Yaşlı və orta nəsil insanların İnternetdən istifadə imkanlarının aşağı olması. | 3 | 3 | 9 | 0,09 |
| **5.** | Orta və kiçik müəssisələrin İKT sahəsində resurslardan zəif istifadə etməsi. | 4 | 4 | 16 | 0,16 |
| **6.** | Cəmiyyətin müəyyən bir hissəsinin İnternetdən istifadədə maraqlı olmaması. | 4 | 3 | 12 | 0,12 |
| **7.** | İxtisaslı kadrların azlığı. | 3 | 2 | 6 | 0,06 |
| | **Cəmi:** | | | **100** | **1** |
| | | | | | |
| **№** | **İmkanlar** | **Əhəmiyyət** | **Qiymət** | **Balla qiymətləndirmə** | **Pay** |
| **1.** | Ölkə üzrə ÜDM-nin və əhalinin pul gəlirlərinin dinamik artımı. | 4 | 5 | 20 | 0,1333 |
| **2.** | Büdcədən əlavə maliyyə gəlirlərinin olması. | 5 | 5 | 25 | 0,1666 |
| **3.** | Ölkədə xarici investisiyaların yatırımı üçün əlverişli mühitin olması. | 4 | 4 | 16 | 0,1067 |
| **4.** | Hakimiyyətin fəaliyyətinin şəffaflığı və açıqlığı. | 4 | 4 | 16 | 0,1067 |
| **5.** | Əhalinin kompüter savadlılığının yüksəlməsi. | 3 | 3 | 9 | 0,06 |
| **6.** | Korrupsiyanın azalması. | 4 | 4 | 16 | 0,1067 |
| **7.** | Regionların sosial-iqtisadi proqramlarının icrası. | 4 | 4 | 16 | 0,1067 |
| **8.** | Cəmiyyətin demokratikləşməsi. | 4 | 3 | 12 | 0,08 |
| **9.** | Ölkənin xüsusiyyətlərini nəzərə almaqla uğurlu xarici təcrübənin tətbiqi. | 4 | 5 | 20 | 0,1333 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **Cəmi:** | | | **150** | **1** |
| | | | | | |
| **№** | **Təhlükələr** | **Əhəmiyyət** | **Qiymət** | **Balla qiymətləndirmə** | **Pay** |
| **1.** | Ermənistanla sülh müqaviləsinin və regionda siyasi sabitliyin olmaması. | 5 | 5 | 25 | 0,4098 |
| **2.** | Bu səbəbdən də hərbi xərclərin artması. | 5 | 4 | 20 | 0,3279 |
| **3.** | COVID-19 pandemiyası səbəbindən ölkəyə idxal olunan İKT avadanlıqlarının bahalaşması. | 4 | 4 | 16 | 0,2623 |
| | **Cəmi:** | | | **61** | **1** |

Beləliklə, 3 saylı cədvəldən aydın olur ki, elektron hökumətin inkişaf prioritetləri (güclü tərəflər və imkanlar) 428 balla cəmi 161 balı olan zəif tərəfləri və təhlükələri üstələdiyindən Azərbaycanda rəqəmsal elektron hökumətin perspektiv inkişaf potensialı böyükdür.

Rəqəmsal elektron hökumətin formalaşmasında cəmiyyətin informativləşməsi də mühüm rol oynayır. Buna görə də bu sahədə də tərəfimizdən SWOT analizi aparılmışdır (cədvəl 4).

**Cədvəl 4**

**Cəmiyyətin informativləşməsinin SWOT analizi**

| **Güclü tərəflər** | **Əhəmiyyət** | **Qiymət** | **Balla qiymətlən-dirmə** | **Pay** |
|---|---|---|---|---|
| • Əhalinin rəqəmsal məlumatlara və elektron xidmətlərə marağının artması | 4 | 4 | 16 | 0,0952 |
| • müəssisələrin İnternetə girişinin olması və kompüterlə müəssisələrin kompüterlə yüksək təmini | 5 | 5 | 25 | 0,1488 |
| • kommersiya elektron xidmətlərə (bank xidmətləri, turizm, ticarət, əyləncə) giriş və yüksək maraq | 5 | 5 | 25 | |
| • gənc nəslin İKT sahəsində yüksək bacarıqları | 5 | 5 | 25 | |
| • təhsildə informativləşmədə yüksək aktivlik | 4 | 5 | 20 | 0,1190 |
| • təhsildə informatika sahəsində ardıcıl siyasət | 3 | 4 | 12 | 0,0714 |
| • ev təsərrüfatlarında kompüterlərin sayının artması | 4 | 5 | 20 | 0,1190 |
| • İKT sahəsinə dövlətin artan marağı | 5 | 5 | 25 | |
| **Cəmi:** | | | **168** | **1** |
| **Zəif tərəflər** | **Əhəmiyyət** | **Qiymət** | **Balla qiymətlən-dirmə** | **Pay** |
| • Əhalinin müəyyən qismində İnternetdən istifadəyə marağın olmaması, yaxud azalması | 4 | 4 | 16 | 0,16 |

| | | | | |
|---|---|---|---|---|
| • bir sıra müəssisələrdə İKT resurslarından istifadənin aşağı olması | 4 | 4 | 16 | 0,16 |
| • orta yaşlı və yaşlı əhalinin İnternetdən istifadə imkanlarının azlığı | 4 | 3 | 12 | 0,12 |
| • Ətəhsilin informativləşməsində olan nisbi aşağı səviyyə | 4 | 5 | 20 | 0,20 |
| • regionların İnternetə girişində və kompüterlərlə təminatında olan fərqlər | 5 | 4 | 20 | 0,20 |
| • fasiləsiz informatika təhsili üçün proqramların olmaması | 4 | 4 | 16 | 0,16 |
| **Cəmi:** | | | **100** | **1** |
| **İmkanlar** | **Əhəmiyyət** | **Qiymət** | **Balla qiymətlən-dirmə** | **Pay** |
| biznesin elektron xidmətlərə marağı | 4 | 5 | 20 | 0,16 |
| İnternet-ticarətə yüksək maraq (portallar, maqazinlər) | 4 | 4 | 16 | 0,128 |
| rəqəmsal televiziyaya keçid | 5 | 5 | 25 | 0,2 |
| distansion işə yüksək maraq | 4 | 4 | 16 | 0,128 |
| insanların və kommersiya təşkilatlarının rəqəmsal informasiyaya inamının artması | 4 | 3 | 12 | 0,096 |
| İKT sahəsində milli kadrların olması | 4 | 4 | 16 | 0,128 |
| giriş üçün kifayət qədər infrastrukturun olması | 4 | 5 | 20 | 0,16 |
| **Cəmi:** | | | | |
| **Təhlükələr** | **Əhəmiyyət** | **Qiymət** | **Balla qiymətlən-dirmə** | **Pay** |
| naqilsiz şəbəkənin təhlükəsizliyinə cəmiyyətdə narahatlıq | 4 | 4 | 16 | 0,1356 |
| uşaqların İnternetdə zərərli şeylərə baxması qorxusu | 5 | 5 | 25 | 0,2119 |
| məlumatların konfidensiallığı və təhlükəsizliyinin qorunmasının vacibliyi | 4 | 5 | 20 | 0,1695 |
| İKT istifadədə milli və vətəndaş təhlükəsizliyinin qorunması üçün xüsusi xidmətlərə tələbatın artması | 4 | 4 | 16 | 0,1356 |
| şəxsi həyatın toxunulmazlığın itirilməsi təhlükəsinin cəmiyyətdə artması | 5 | 5 | 25 | 0,2119 |
| müəllif hüquqlarına riayət edilməsinin vacibliyi | 4 | 4 | 16 | 0,1356 |
| **Cəmi:** | | | **118** | **1** |

4 saylı cədvəlin göstəricilərinə əsasən belə bir rəyə gəlmək olur ki, cəmiyyətir informativləşmə prioritetləri (güclü tərəflər və imkanlar) 293 balla zəif tərəflərin və təhlükələrin 218 balını üstələyir, yəni ölkəmizdə cəmiyyətin informativləşməsi potensialı güclüdür.

Ölkəmizdə elektron hökumətin mövcud vəziyyətinin və "rəqəmsal hökumətə" keçid istiqamətinin PEST (political, economic, social and technological - siyasi, iqtisadi, sosial və

texnoloji) analizi əsasında qiymətləndirilməsinin bu sahədə keçilən yola nəzər salmağa və qarşıdakı görüləcək işlərə işıq salmağa imkan verir.

Xarici ətraf mühitin mövcud cari strateji şəraitini qiymətləndirərək ölkəmizdə "rəqəmsal hökumətə" keçid potensialını və bu inkişafın istiqamətini müəyyən etmək məqsədi ilə tərəfimizdən PEST analizi aparılmışdır (cədvəl 5).

**Cədvəl 5**

**Ölkəmizdə " rəqəmsal hökumətlə"keçidin PEST analizinin nəticələri**

| **Faktor-lar** | **İmkanlar** | **Təhlükələr** | **Görülən işlər** | **Görülməli vacib işlər** |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** |
| Siyasi faktorlar | 1.Dövlət başçısı-nın və dövlətin siyasi dəstəyi | 1. Regionda siyasi sabitliyin olmaması | 1. Beynəlxalq təcrübədən yaradıcı istifadə | 1. Regionlarda bu sahədə görülən işlərə ciddi nəzarətin təşkili |
| | 2.Ölkədə sabit siyasi durum | 2. Regionda müharibə təhlükəsinin olması | 2. Beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq | 2. İcra edilən işlərin hesabatlığı |
| | 3. Ölkənin ərazi bütövlüyünün təmin edilməsi | 3. Passiv məmur müqaviməti | 3. Kibertəhlükəsizli yin gücləndirilməsi | 3. Beynəlxalq əməkdaşlığın genişləndirilməsi |
| | 4. Azad sahibkarlıq mühiti | 4. Məmurların inzibati təsir imkanlarını itirmə qorxusu | 4. Qanunvericilik bazasının təkmilləşdirilməsi | 4. Mövcud reallıqları nəzərə almaqla hüquqi normativ və qanunverici bazanın vaxtında təkmilləşdirilməsi |
| | | 5. Regionlarda innovasiyalara biganə münasibət | | 5. Fasiləsiz monitorinq |
| | | 6. Struktur dəyişiklərinin uzun müddət ərzində və ləng getməsi | | |
| İqtisadi faktorlar | 1. Dayanıqlı və davamlı inkişaf. | 1. Ermənistanın regionda gərginlik mənbəyi olması və müharibə təhlükəsi ilə bağlı hərbi xərclərin səviyyəsi | 1. Azad iqtisadi zonaların yaradılması | 1. Maliyyə menecenentinin fəaliyyətə başlaması |
| | 2. İnfilasiyanın səviyyəsinin aşağı hədləri | 2. Dünyada iqtisadi vəziyyətin sabit olmaması | 2. İpək yolunun fəaliyyət göstərməsi sahəsində görülən | 2. Azad və xüsusi iqtisadi zonaların işgüzarlığının |

| | | | | |
|---|---|---|---|---|
| | | | işlər | artırılması |
| | 3. Manatın məzənnəsinin sabitliyi<br><br>4. İKT sahəsində gəlirlərin artması<br><br>5. İKTsahəsində infrastrukturun yaradılmasına qoyulan vəsatitin artımı | 3. Ölkəyə gətirilən İKT avadanlıqlarının qiymətinin yüksək olması<br>4. İşğaldan azad edilmiş torpaqların məskunlaşdırılmasının və yeni müasir infrastrukturun yaradılmasının böyük maliyyə vəsaiti tələb edilməsi | 3. Mərkəzi və regional texnoparkların fəaliyyət göstərməsi | 3. Maliyyələşmənin alternativ mənbələrinin cəlb edilməsi<br><br>4. İnformasiya kapitalının formalaşdırılması işinin başa çatdırılması<br><br>5. İKT-nin yeni sahələrinin ölkədə tətbiqi<br><br>6. Elektron kommersiya və ticarətin dəstəklənməsi |
| Sosial faktorlar | 1. Əhalinin gəlirlərinin ildən - ilə artması<br><br>2. Həyat keyfiyyətinin yaxşılaşması<br><br>3. Təhsilin səviyyəsinin ildən -ilə artması<br><br>4. İşsizliyin dinamik azalması | 1. İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun yaradılmasının müəyyən vaxt tələb etməsi<br>2. Rəqəmsal bərabərsiyliyin mövcudluğu<br>3. "Elektron vətəndaş" problemininn mövcudluğu<br>4. Regionlarda e-hökumət xidmətlərinin hamısının əlçatan olması<br>5. Ana dilində məlumatların azlığı | 1. Yüksək ixtisaslı milli peşakar kadrlar hazırlanıb<br><br>2. Bu kadr potensialından səmərəli istifadə edilir.<br>3. Müasir çağırışlara cavab verən yeni nəsil formalaşır | 1. Rəqəmsal savadlığın artırılması<br><br>2.Kibertəhlükəsizliyin gücləndirilməsi<br><br>3. Geniş zolaqlı şəbəkənin bütün ölkə üzrə genişləndirilməsi<br>4. Ana dilində bu sahədə daha dərin biliklər verən mənbələrin yaradılması |
| Texnoloj | 1. Ölkədə yeni | 1.Büroktarik | 1. Ölkədə İKT | 1. İKT üzrə elmi |

| | | | | |
|---|---|---|---|---|
| i | nəsil İKT tətbiqi<br><br><br><br>2. İnnovasiyalı inkişaf üçün potensialın olması<br><br>3. Bütün ölkə üzrə internetin sürətlə yayılması<br>4. İKT-dən və elektron xidmətlərdən istifadə edən əhali sayının sürətlə artımı | əngəllər<br><br><br><br>2. Ayrı-ayrı qurumların laqeyd münasibəti | avadanlıqları istehsalı<br><br>2. Vahid e-hökumət portalı çərçivəsində ayrı ayrı dövlət qurumlarının qarşılıqlı əlaqəsi<br>3. "My Gov" portalı<br>4 e - satınalma<br>5 e - agro<br>6 "ASAN" Xidmət<br>7 E- hərrac<br>8 "ASAN login"<br>9 E-imza<br>10 "ASAN imza"<br>11 "SİMA İmza"<br>12" ASAN BOT"<br>13 " Üz tanıma" | araşdırılmaların vahid mərkəzinin yaradılması<br>2. Milli İKT istehsalının inkişaf etdirilməsi<br><br><br><br>3. Elektron təhsilin əhatə dairəsinin genişləndirilməsi<br>4. " Elektron vətəndaş probleminin həlli istiqamətində işlərin görülməsi"<br><br>5. " Elektron demokratiyanın genişləndirilməsi" |

Beləliklə, PEST-analizi bir sistemli analiz variantı olaraq ölkəmizdə “rəqəmsal elektron hökumətin” formalaşması sahəsində böyük potensialın mövcüdluğunu göstərir. Tərəfimizdən aparılan SWOT və PEST analizləri ölkəmizdə “rəqəmsal hökumət”in formalaşmasına təkan verən bir sıra güclü və əksinə, mane olan zəif tərəfləri müəyyən etməyə imkan vermişdir.

“Rəqəmsal hökumət”in formalaşmasına dəstək olan güclü tərəflərə bu aşağıda sadalanan faktorlar aiddir:

1. Ölkənin ərazi bütövlüyünün təmini və Ermənistanın məğlub edilməsi.
2. Ölkə Prezidentinə yüksək inam, Prezidentin siyasi iradəsi və uzaqgörənliyi.
3. Ölkədə davamlı siyası sabitlik mühiti.
4. Ölkə iqtisadiyyatının dayanıqlı və davamlı inklüziv inkişafı.
5. Ölkədə yaradılmış müasir İKT infrastrukturunun fəaliyyət dairəsinin ildən-ilə genişlənməsi.
6. “Rəqəmsal iqtisadiyyat”ın inkişafı üçün işlərin uğurla davam etdirilməsi.
7. “Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” və “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası” çərçivəsində İKT və rəqəmsal hökumət sahəsində görüləsi işlərin konkret icra müddətinin göstərilməsi və həyata keçirilməsinə cavabdeh olan təşkilatın məsuliyyət daşıması.

Eyni zamanda rəqəmsal hökumətin reallaşması prosesinin zəif tərəfləri də vardır:

1. İşğalçı Ermənistanın regionda gərginlik ocağı yaratması və bu səbəbdən də ölkəmizin hərbi xərclərinin artması.
2. İşğaldan azad edilmiş ərazilərin məskunlaşması və müasir infrastrukturun yaradılması işlərinin böyük maliyyə vəsaiti tələb etməsi
3. Milli ixtisaslı kadrların kifayət qədər olmaması
4. Milli yerli İT bazarın həcminin kiçik olması
5. Dövlət qulluqçularınn bir hissəsində müasir texnologiyalarla işləməyə həvəsinin olmaması.
6. Müəssisə və təşkilatlarda bu sahayə nəzarətin zəifliyi
7. Əhalinin yaşlı hissəsində yeni texnologiyalara marağın azlığı və hökumət quruçuluğunda zəif iştirak etməsi

8. Əhali arasında rəqəmsal fərqliliyin tam aradan qaldırılmaması.

**İstifadə edilmiş ədəbiyyat:**


**1.** Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”.

**2.** Н.Дж.Гаджиев, (2012). Роль SWOT-анализа при формировании стратегии развития электронного правительства в Азербайджане, УДК [328.1(479.24):004.78]: 005.52:005.33, Науковий журнал № 3, (410).

**3.** Чуркина В., Сухова О.В. (2016). Применение метода SWOT анализа в исследовании системы управления организации. Научно-исследовательские публикации. № 4 (36), Материалы научно-практической конференции, Общество и цивилизация: Тенденции и перспективы развития современного общества в XXIвеке» (30сентября 2016г.) г. Воронеж.

**4.** Москалёва Е.Г., Седойкина Т.С. (2015). Россия, г. Саранск, Применение SWOT-анализа в бюджетных учреждениях, "Экономика и социум". №1 (14), www.iupr.ru

**5.** А.А.Мусаева., А.Аққалиқызы. SWOT-анализсоциально-экономического развития Казахстана. Атырауский государственный университет им.Х.Досмухамедова, г.Атырау, Республика Казахстан, Экономика и право, МРНТИ 06.61.53, E-mail: a.musayeva@asu.edu.kz

**6.** http://www.swot.ru

**7.** Волкова Л. Методика проведения SWOT анализа. http://market.narod.ru/S.StrAn/ SWOT.html



**N.J.Hajiyev**

*PhD in Economics, Azerbaijan State University of Economic (UNEC)*

*ORCİD 0009-0008-8700-3904*


**Evaluation of the impact of external and internal factors on the digital e-government building process and the development of e-services in Azerbaijan in the modern era**


**Abstract**

*The article provides information of the process of successful completion of the digital e-government building process in the transition to the digital economy in Azerbaijan and the results of SWOT analysis conducted in order to assess the development prospects of the e-services and the results of PEST analysis of the current strategic conditions on the potential transition and direction of development of the transition to the digital e-government.*



***Key words**: digital economy, digital e-government, SWOT analysis, PEST analysis.*



**Н.Дж.Гаджиев**

*д.ф.по э., Азербайджанский Государственный Экономический Университет*

*ORCİD 0009-0008-8700-3904*


**Оценка влияния внешних и внутренних факторов на процесс построения цифрового электронного правительства и развитие сферы электронных услуг в Азербайджане в современную эпоху**


**Резюме**

*В статье представлена информация о результатах SWOT-анализа, проведенного с целью оценки перспектив развития сферы электронных услуг, и PEST-анализа влияния*

*текущих стратегических условий на потенциал и направление развития перехода к цифровому электронному правительству, на процесс успешного завершения строительства цифрового электронного правительства при переходе к цифровой экономике в Азербайджане в современный период.*

***Ключевые слова***: *цифровая экономика, цифровое электронное правительство, SWOT-анализ, PEST-анализ.*